Azərbaycan.- 2021.- 11 iyun. S. 2.

# Dayanıqlı İnkişaf Məqsədləri üzrə gənc səfirlər mükafatlandırılıb

İyunun 10-da Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında Birləşmiş Millətlər Təşkilatının (BMT) Dayanıqlı İnkişaf Məqsədləri üzrə seçilmiş 17 gənc səfirin təqdimat və mükafatlandırma mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, gənc səfirlərin seçimi Gənclər və İdman Nazirliyinin və BMT-nin İnkişaf Proqramının ölkəmizdə ilk dəfə birgə həyata keçirdiyi "Qlobal siyasi müzakirələrdə gənclərin fəal iştirakını dəstəkləmək üçün yeni əsasların yaradılması" layihəsi çərçivəsində baş tutub.

Təqdimat mərasimində Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov, gənclər və idman nazirinin müavini İntiqam Babayev, BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi Alessandro Frakasseti, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev və Milli Məclisin deputatı Məzahir Əfəndiyev iştirak ediblər.

Baş nazirin müavini Əli Əhmədov tədbirdə çıxış edərək bildirib ki, bu, uzunmüddətli və eyni zamanda özünü doğruldan layihələrdən biridir. Layihə Azərbaycan gənclərinin beynəlxalq təşkilatların fəaliyyətində aktiv iştirakı baxımından mühüm əhəmiyyət kəsb edir. Fəaliyyətini başa vuran gənc səfirlərin uğurlarını müsbət qiymətləndirən Əli Əhmədov onları təbrik edib. Baş nazirin müavini gənclərin etimadı doğruldacaqlarına və üzərlərinə düşən missiyanı uğurla həyata keçirəcəklərinə əminliyini bildirib, onlara uğurlar arzulayıb.

Gənclər və idman nazirinin müavini İntiqam Babayev gənc səfirləri təbrik edərək onlara bu məsuliyyətli işdə uğurlar arzulayıb. Gənclərin böyük uğurlar qazanacaqlarına inamını ifadə edən nazir müavini deyib ki, gənc səfir seçilmək üçün müsabiqəyə müxtəlif regionlardan 300-ə yaxın ərizə daxil olub. Şəffaf seçim prosesi çərçivəsində həmin gənclər arasından müvafiq bilik və bacarıqlara malik 17 nəfər Dayanıqlı İnkişaf Məqsədləri üzrə Azərbaycanda növbəti gənc səfirlər seçiliblər.

BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi Alessandro Frakasseti gənc səfirlərin seçimində fəal dəstəyinə görə Gənclər və İdman Nazirliyinə təşəkkürünü bildirib. O, gənclərin hər birinin təmsil edəcəkləri sahədə uğurlu olacaqlarına inandığını qeyd edib.

Qeyd edək ki, 2018-2020-ci illərdə fəaliyyət göstərmiş Dayanıqlı İnkişaf Məqsədləri üzrə gənc səfirlərin uğurlu fəaliyyəti və Dayanıqlı İnkişaf Məqsədlərinin ölkə ərazisində təbliğində göstərmiş olduqları səylər layihə üzrə növbəti gənc səfirlərin seçilməsini zəruri edib. Ötən illərdə layihənin gənclərə qazandırdığı bilik və bacarıqlar 2021-2023-cü illər üzrə seçilmiş gənc səfirlərin ölkədə Dayanıqlı İnkişaf Məqsədləri ilə əlaqədar həyata keçirilən təşəbbüslərdə daha fəal və innovativ təbliğat vasitələri ilə fəaliyyət göstərəcəklərinə ciddi əsas yaradır.

